# Qisas qiyamətə qalmaz



***Asim Yadigar***

***Hazırda İnterpolun xətti ilə Zori Balayan haqqında beynəlxalq axtarış elan olunub***

***Qəzetlərdən***

Sən ey türkün düşməni,
Tanıyırsan türkü sən.
Bütün aləm bilir ki,
Qorxaq, yazıq tülküsən.
Hər gün quyruq bulayıb
O dərədə, bu dağda.
Türk süfrəsindən artıq
Gəzirsən Qarabağda.
Bilmirəm mağarada,
Ya hansı zağadasan.
İnsanlıqdan çıxaraq
Dönüb olmusan siçan.
O deşikdən girirsən,
Bu deşikdən çıxırsan.
Yenə türk torpağına
Həsrət-həsrət baxırsan.
Yandırıb kül etdiyin
Qarabağdan nə xəbər?
Yaşamağa yerin yox,
Dərbədərsən, dərbədər.
Min ildir səfil it tək
Dünyanı dolaşırsız.
Meşələrdə, çöllərdə
Çaqqal tək ulaşırsız.
Səsinizə səs verən,
Züy tutanlar tapılır.
Dənizdə boğulanda
Əl atanlar tapılır.
Dünyanın hər yerində
Tanınırsız səfil tək.
"Yazıq, mağmın millətsiz"
Yaşayırsız tifil tək.
Amma məqam tapanda
"Pələngsiniz", "şirsiniz"
Türk qanını içməyə
Hərisdi it cinsiniz.
...Çox döşünə döyürsən,
Ey cəllad, ey qaniçən.
Qarabağda tökdüyün
Qanla çox öyünmə sən.
Kişisən gizləndiyin
Deşiklərdən üzə çıx.
Əsir düşən uşaqdan
Qisas alan, ay yazıq.

***

...Xocalı faciəsi,
Xocalı soyqırımı.
Bu qanlı cinayəti,
Bilsin, eşitsin hamı.
Dərd üstə dərd yığdılar.
Düşmənlər yığın-yığın.
Gəlin bu dəhşətlərə
Bir az yaxından baxın.
Erməni cəlladları
Sarı körpələr ilə
Xocalı çöllərində
Divan tutdular elə.
Qırdılar, öldürdülər,
Neçə oğulu, qızı.
O gün Azərbaycanın
Dağı, daşı, yamacı
Bir rəng aldı-qırmızı.
Qocalar güllələndi,
Uşaqlar güllələndi.
Kəsildi başlar, qollar
Hər yana qan çiləndi.
Qurbanlıq qoyun kimi
Kəsdilər əsirləri
Bu vəhşilik titrədər
Gələcək əsrləri...
Bu qədər qansızlığa
Yer də, göy də ağladı.
Əzablar, işgəncələr
Sinələri dağladı.
Sən də, Zori Balayan,
Həmin gün Qarabağda
İt kimi sülənirdin
O dərədə, bu dağda.
Xocalıda kəsilən
Qanlı başlar görürdün.
Üstündə yeriyirdi
Qanlı daşlar, görürdün.
Sinəndə türkə nifrət,
Qəzəb vulkanın vardı.
Püskürürdü sinəndə
Dünya gözünə dardı.
Bu dünya, qoca dünya
O gün namərdin idi.
Qəhrəmana dönmüşdü
Dığa-kəsib, biçirdi.
Bir evdə bir mənzərə
Yayınmadı gözündən.
Yox, bunu mən yazmıram,
Sən demisən özündən.
Yazırsan ki, bir evə
Girdik Xaçatur ilə
Divara mısmarlanmış
On üç yaşlı bir türkü
Seyr etdik gülə-gülə.
Qan axıb tökülürdü.
O türkün üst-başından.
Ermənilər qorxmurdu
Onun qurd baxışından.
Səs-küy salmasın deyə
Xaçatur tez-tələsik
Uşağın anasının
Kəsilmiş bir döşünü
"Qoy olsun bu da əmzik".
Deyib-türk balasının
Tezcə ağzına soxdu.
Amma mənim bu türkə
Nifrətim daha çoxdu.
Başından, sinəsindən
Soydum dərisini mən.
Yenə tikan çıxmadı
Elə bil ürəyimdən.
Bu dəfə də qarnının
Soydum dərisini mən.
Türk balasının belə
Verdim bax, dərsini mən.
Baxdım nəşə içində
Bu türkün ölümünə.
Bilirsiz necə nəşə
Verdi bu ölüm mənə?
Qanı axdı, süzüldü
Ev tamam qan içində.
Necə sevindim bilsəz.
Mən bu zaman içində.
Dedim indi bir anda,
Bu türk gəbərəcəkdi.
Amma onun ölümü
Yeddi dəqiqə çəkdi
Həkim qanım qaynadı
Damarımda bir anlıq
Hippokrat andı belə
Qaldı mənə qaranlıq.
Ruhum qanadlanırdı
Bir quş kimi göylərdə.
Bu dəhşətə elə bil
Yas tuturdu göylər də.
Amma mənim qəlbimi

**Poema**

Sevinc, şadlıq sarırdı.
Babalarımın ruhu
Məni alqışlayırdı.
Beləcə göz önündə
Öldü bir türk balası.
Biz türklərdən beləcə
Alırdıq bax qisası.
Yenə də soyumurdu
Qəlbimizin yanğısı.
Qisas üstdən alırdıq
Bu uşaqdan qisası.
Xaçatur tikə-tikə
Doğradı bu uşağı.
Atdı quduz itlərə
İtlər ac idi axı.
Yedirtdik türk balasın
Beləcə bir itə biz.
Amma dinclik tapmırdı
Yenə də ürəyimiz.
Həmin gün neçə evdə
Çıxartdıq bu oyunu.
Bir gündə düz dörd türkün
Beləcənə çaldırdıq
Xocalıda toyunu.
Bizə sevinc verirdi
Oyunlar, əyləncələr.
Bax, indi ermənilər
Bəlkə bir anlıq rahat
Nəfəs alar, dincələr...
..Bəli, Zori Balayan,
Bu sənin vəhşiliyin,
Törətdiyin əməldir.
Özündən boy söyləmə
Bir nəfəs dər, dayan bir.
Hər zülmün, hər əzabın
Bir sonu var-bunu bil.
Türk balası sən deyən
O qədər aciz deyil
Arxalı köpəklərin
Qurd basmaq adəti var.
Bu qanlı vəhşiliyə
Cavab soran tapılar.
Bu qanlı vəhşiliyi
Türk heç yaddan çıxarar?
Yüz-yüz başlar kəsdiniz
Xocalıda o gün siz.
Amma bir gün siz bunun
Əvəzin görəcəksiz.
Bu qədər qandan sonra
Getmisən kilsəyə sən.
Getmisən ki, bu qanı
Yuyasan üzərindən.
Sən ey, Zori Balayan,
Sənin murdar qəlbini.
Qəlbində türkə qarşı
Sonsuz nifrəti, kini
Bir kilsə yox, yüz dəniz
Yuyub-təmizləyərmi?
Qəlbin çirkab yuvası
Bir qəpiyə dəyərmi?
Türkə it nəsli deyən,
Ey donuz nəsilli sən,
Özün də donuz kimi
Bir gün gəbərəcəksən,
O, Sədi Şirazinin
Çox gözəl bir sözü var.
"Heç seyqəl götürməz zatı pis dəmir,
Nə qədər çalışsan bədgöhər olar.
İti yeddi dəniz su ilə yusan
Yaş olcaq daha da beşbetər olar.
İsanın eşşəyi Məkkəyə getsə,
Qayıdıb gələndə yenə xər olar".
Murdarsan donuz kimi
Ey, Zori Balayan, sən.
Donuz ətin bizlərə
Qadağan eyləyibdir
Peyğəmbərim, bilirsən.
Amma sənin ətini
İtlər də yeməz inan.
İtlərin də gözündə
Sən murdardan murdarsan,
İnsanlıqdan çıxmısan,
İrin, qan tuluğusan.
Sənin insan adına
Tüpürməz insan olan
...Hardasan, harda indi,
Sən ey, Zori Balayan?
Qarabağda sönməyən
Bir od-ocaq qalayan.
Bu sənin "Ocağ"ının
Odudur, alovudur.
Sanma mənim millətim
Erməninin ovudur.
Bu xalq heç vaxt, heç zaman
Ermənidən qorxmayıb.
Erməni dığasının
Hədəsinə baxmayıb.
Meydanda kişi kimi
Deyibdi öz sözünü.
Kiminsə kölgəsinə
Dürtməyibdi özünü.
Sən ey, Zori Balayan,
Biz üzə çıx, hardasan?
Neçə gözdən yayınmaq
Sənə gəlməsin asan.
Gündə bir dona girib
Dəyişsən də özünü.
Dəyişə bilməzsən ki,
Əqidəni, sözünü.
Hər gün bir mağarada,
Zağada gizlənsən də.
Bir gün ələ keçəcək,
İlişəcəksən sən də.
Getdiyiniz yolların
Astarı da üz olub.
Dünyanın qulaqları
Daha yalanla dolub.
Maskalanmış üzünü
Aç, bir dünyaya göstər,
Bax gör murdar üzünə
Tüpürən var bir nəfər?
Əgər üzə çıxmağı
Kişi tək bacarmırsan.
Sənə bir yol deyirəm
Olsun asandan asan.
Bir arvad paltarı gey,
Düş yolların ağına.
Asta-asta pıçılda
Dünyanın qulağına.
De: -"erməni dığası
Zori Balayan mənəm.
Qarabağ deyə-deyə
Hər gün ulayan mənəm.
Qorxudan tısbağa tək
Çəkilmişəm qınıma.
Dönüb arvad olmuşam
Daha məni qınama".
Dəyiş sir-sifətini,
Ənlik, kirşan vur üzə.
Get özünü dünyada
Təp təzədən hər gözə.
Milyonçu "dayıların"
Sənə havadar olsun.
Gir bir əməliyyata,
Kilsə sənə yar olsun.
Kişilikdən uzaqsan,
Dön bari bir arvad ol.
Onda sənin qarşında
Daha açıq olar yol.
Ondan sonra özünə
Ey Zori Balayan, sən
Seç ayrı yol, peşə sən.
Bütün dünya görsün ki,
Beynəlxalq fahişəsən.

**27 fevral 2007**